ədalət.- 2021.- 17 iyun.- S.6.



*Seyran Əliyev*

# Şan-şöhrət gətirdi türkə Ərdoğan!

*Bir ana bir oğul doğdu millətə,*
*Şan-şöhrət gətirdi türkə Ərdoğan!*
*Misri qılınc oldu zülmə,zillətə,*
*Qəbrin nurla dolsun, türkə ər doğan!*
*Şan-şöhrət gətirdi türkə Ərdoğan!*

*Alışdı köksündə bir Turan közü,*
*Qardaşlıq bayrağın qaldırdı özü,*
*Bismillah,Ya Allah oldu ilk sözü,*
*Yerrin cənnət olsun, türkə nər doğan!*
*Şan-şöhrət gətirdi türkə Ərdoğan!*

*Doğma vətən bildi hər türk elini,*
*Yozdu yağıların fitnə-felini,*
*Üzdü ümidlərin,qırdı belini,*
*Haqqın halal olsun,mərd əsgər doğan!*
*Şan-şöhrət gətirdi türkə Ərdoğan!*

*İçərdə,dışarda kəsdilər yolun ,*
*Dövrəyə aldılar sağın,həm solun ,*
*Yumdu ağızların,kəsdi əl-qolun,*
*Qəhr oldu önündə türkə şər doğan!*
*Şan-şöhrət gətirdi türkə Ərdoğan!*

*Oynanılan oyun aşdı boyunu,*
*Çözdü kələkləri,pozdu oyunu,*
*Köməksiz qoymadı bir türk boyunu,*
*Qoy ruhun şad olsun, müzəffər doğan!*
*Şan-şöhrət gətirdi türkə Ərdoğan!*

*Göstərdi dünyaya türkün qüdrətin,*
*Xaçlının İslama sonsuz nifrətin,*
*Siyasət aləmi gördü cürətin,*
*Belə oğul doğmur türkə hər doğan!*
*Şan-şöhrət gətirdi türkə Ərdoğan!*